# *Qocalıq*

*Mənə gəzmə bu zamanın cövründə,*
*Çək kefini hər yaşın öz dövründə.*
*Şərəflə yaşanmış kişi ömründə*
*Bir zirvədi, ucalıqdı qocalıq.*

*Yüzü haqlamağa ümid etmə sən,*
*Səksənə, doxsana çatana əhsən!*
*Şəninə nə qədər tərif də desən,*
*Adı yenə qocalıqdı, qocalıq.*

*Ayları, günləri sananıb daha,*
*Əli yetə, ya yetməyə sabaha.*
*Qəlbinə toxunub, batma günaha,*
*Kövrəklikdi, yuxalıqdı qocalıq.*

*Babanlı, özünə vermə təsəlli,*
*Dünyanın gərdişi bəllidi, bəlli.*
*Sanılı günlərdən yapış dördəlli,*
*Gur həyatdan son qalıqdı qocalıq.*

Ədəbiyyat qəzeti.- 15 yanvar.- 2022- ci il.- S. 2.